**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# BƏSTƏKAR SİYAVUŞ KƏRİMİNİN YARADICILIĞININ ƏSAS İSTİQAMƏTLƏRİ

İxtisas: 6213.01 – Musiqi sənəti

Elm sahəsi: Sənətşünaslıq

İddiaçı: **Aynurə Vaqif qızı Məmmədova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Azərbaycan Milli Konservatoriyasının "Musiqinin tarixi və nəzəriyyəsi" kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: Sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
**Akif Nüsrət oğlu Quliyev**

Rəsmi opponentlər: Sənətşünaslıq doktoru, professor
**Nailə Rasim qızı Rəhimbəyli**

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Elmira Pənah qızı Pənahova**

Sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent
**Aytən Rauf qızı Babayeva**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurası

Dissertasiya şurasının sədri: ________ sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor
**Ülviyyə İsmayıl qızı İmanova**

Dissertasiya şurasının elmi katibi: ________ sənətşünaslıq doktoru, dosent
**Leyla Ramiz qızı Zöhrabova**

Elmi seminarın sədri: ________ sənətşünaslıq doktoru, professor
**İmruz Məmməd Sadıx qızı Əfəndiyeva**

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Hər bir yaradıcı sənətkarın milli musiqi mədəniyyətinin tarixində yerini və rolunu müəyyənləşdirmək musiqişünaslığın vacib vəzifələrdən biridir. Bu baxımdan Azərbaycan Respublikasının Xalq artisti, professor, ictimai xadim, maarifçi, "Şöhrət" və "Şərəf" ordenli sənətkar Siyavuş Kəriminin (1954) çoxaspektli və zəngin yaradıcılıq fəaliyyətinin tədqiqi olduqca əhəmiyyətlidir. Belə ki, onun istər ifaçılıq, istər bəstəkarlıq, istər elmi-pedaqoji, istərsə də musiqi-ictimai sahədə gördüyü işlərdə yüksək peşəkarlıq, ciddi məsuliyyət, dərin bilik və qabiliyyət nümayiş etdirdiyinin şahidi oluruq.

S.Kərimi çox sayda musiqi əsərlərinin müəllifidir. Onu geniş xalq kütləsinə tanıdan lirik mahnılarıdır, bəstəkar və xalq mahnılarının gözəl və əsrarəngiz aranjimançısı kimi də məşhurdur. Dövrünün görkəmli rejissorları, dramaturqları və ssenaristləri ilə birgə iş birliyi sayəsində S.Kərimi ən müxtəlif mövzularda teatr tamaşalarına, kino və sənədli filmlərə musiqi bəstələmişdir. O, teatr üçün ondan artıq tamaşaya musiqi bəstələmiş, kino sahəsində də bədii, sənədli və cizgi filmlərə musiqi yazmışdır. Yaratdığı hər bir əsər yüksək bədiiliyi, dramaturji bütövlüyü ilə seçilərək müasir Azərbaycan musiqi mədəniyyətinə dəyərli töhfə kimi daxil olmuşdur. Bütün bunlar onun bəstəkarlıq yaradıcılığına elmi aspektdən yanaşmağın aktuallığını şərtləndirir.

Musiqi yaradıcılığının hər bir sahəsində çalışmasından – istər bəstəkarlıq, istər pedaqoji, istərsə də ifaçılıq olsun, fərq etməz, S.Kəriminin əsaslandığı yeganə mənbə – xalq yaradıcılığıdır. Milli köklərə bağlılıq onun yardıcılığının təməl daşıdır. Onun bəstələdiyi əsərlərin musiqi dilinin özünəməxsusluğunu da məhz milli musiqi mədəniyyətinin zəngin ənənələrindən bəhrələnərək yeni yozumu təşkil edir. Müasirliyə, mədəniyyətlərin qarşılıqlı əlaqəsinə və sintezinə meyl edən bir musiqiçi kimi S.Kəriminin yaradıcılıq istiqamətlərinin tədqiqində onun milli mənbələrlə bağlılığını, eyni zamanda, müasir musiqi təcrübəsini üzvi mənimsəməsini əsaslandırmaq zəruriliyi aktuallıq kəsb edir.

S.Kərimi professional tarzən olduğundan xalq musiqisinin, muğamların, xalq çalğı alətlərinin yorulmaz təbliğatçısı və tədqiqatçısı kimi də tanınmışdır. Onun bu sahədə fəaliyyəti xüsusi olaraq qeyd olunmalıdır. Belə ki, bir sıra milli musiqi alətlərimizin təkmilləşməsində və yenidən bərpa olunmasında fəal iştirak etməsi, respublikada ilk dəfə olaraq saz aləti üzrə dərsliyin hazırlanmasında həmmüəllif olması, musiqi sənəti və musiqi təhsili ilə bağlı müxtəlif məsələləri əhatə edən çox sayda elmi-publisistik məqalələrlə mətbuatda mütəmadi çıxış etməsi S.Kəriminin milli musiqi elmi və təhsili qarşısında duran bir sıra aktual problemləri üzərində düşüncələrini nümayiş etdirir.

S.Kərimi sənətə ifaçı kimi qədəm qoymuşdur. O, Azərbaycanın korifey sənətkarı SSRİ Xalq artisti R.Behbudovun məktəbini keçmiş, onun Mahnı Teatrında püxtələşmiş, Xalq artisti Polad Bülbül oğlu kimi populyar bir sənətkarla birgə çalışmış, görkəmli pianoçu, Xalq artisti R.Babayevlə uzun zaman işləmişdir. Belə yaradıcı əlaqələr S.Kəriminin bir ifaçı kimi Azərbaycan estrada musiqisi sahəsində topladığı böyük təcrübə və bacarığının peşəkarlığını təsdiq edir.

S.Kərimi öz ifası və aranjimanları ilə estrada musiqimizə yeni çalarlar gətirmiş, onu gözəl koloritlərlə zənginləşdirmişdir. Bunu sənətkarın "Aşıqlar", "Cəngi" ansanbllarında göstərdiyi fəaliyyəti də sübut edir. Onun sənətində bəstəkarlıq bacarığı və ifaçılıq qabiliyyəti üzvi surətdə uzlaşaraq maraqlı həllini tapmışdır. Hər iki fəaliyyər növü onun yaradıcılığında birləşərək paralel inkişaf etmişdir.

S.Kərimi daima axtarışda olan sənətkardır. Onun həyata keçirtdiyi bir sıra maraqlı beynəlxalq miqyaslı layihələrə rəhbərlik etməsi bunun bariz nümunəsidir. 1997-ci ildə Azərbaycan-Norveç və 2002-ci ildə Azərbaycan-Cənubi Amerikası arasında musiqi əlaqələrinin genişlənməsinə həsr edilən bu layihələr Azərbaycan musiqisinin dünyaya inteqrasiyası yolunda əhəmiyyətli addımlardır. Təsadüfi deyil ki, belə bir orijinal proyektlər geniş rezonans doğurmuş yerli və xarici mətbuatda ətraflı işıqlandırılmışdır[1,2,3,4,5,6].

---

[1] Hacılı, Ü.T. Azərbaycan-Norveç musiqi əlaqələri: / sənətşünaslıq üzrə fəlsəfə doktoru dis. avtoreferatı. / – Bakı, 2016. – 26 s.

[2] Ömərov, V. Azərbaycan-Norveç mədəni əlaqələri // Səs. – 2013, 13 senytabr. – s. 15

Göründüyü kimi, S.Kərimi Azərbaycan musiqi mədəniyyətinin bir çox görkəmli nümayəndələri kimi, istər ölkəmizdə, istərsə də ondan çox-çox uzaqlarda yaxşı tanınan musiqiçidir. Lakin təəssüf olsun ki, Azərbaycan musiqisinin, milli musiqi alətlərimizin təkmilləşməsində və təbliğində xüsusi rolu olan belə istedadlı musiqiçi, bəstəkar, pedaqoq və ictimai xadimin yaradıcılıq fəaliyyəti bu günədək ciddi elmi səviyyədə araşdırılmamış, əsərləri təhlil edilməmiş, çoxaspektli irsi öyrənilməmişdir. Onun yaradıcılığının kompleks halda elmi-nəzəri işlənilməsinə ehtiyac çoxdan yaranmışdır. Bu baxımdan S.Kəriminin Azərbaycan musiqi mədəniyyətində rolunu və əhəmiyyətini müəyyənləşdirmək məqsədilə yaradıcılığının geniş və çoxaspektli tədqiqi olduqca vacibdir.

S.Kərimi haqqında məlumatlar elmi jurnal və ensiklopediyalarda, respublika dövri mətbuatda çap olunan məqalələrdə qismən əksini tapmışdır[7,8,9,10].

Bunlardan A.Quliyevin "Konservatoriya" jurnalında S.Kəriminin həyat və yaradıcılığına həsr olunan "Tükənməz enerjili sənətkar"[11], "Qloballaşan dünyada musiqi ənənləri" adlı topluda J.Qulamovanın Azərbaycan-Norveç və Azərbaycan-Latın Amerikası

---

[3] Azərbaycan - Norveç musiqisinin sintezi. / Mədəniyyət qəzeti. – 2 iyul, 2010. [Elektron resurs] / URL: https://medeniyyet.az/page/news/13309/AzerbaycanNorvec-musiqisinin%20sintezi

[4] Azərbaycan və Latın Amerika musiqiçiləri bir səhnədə. / Lent.az saytı. 27 yanvar, 2011. [Elektron resurs] / URL: https://m.lent.az/news/54477

[5] Den 16.SKRUK-plata kan verte den siste // Sunnmorsposten Tysdag. – 1998, 4 august. – p. 4

[6] SKRUK vender blikket austover // Sunnmorsposten. Trisdag. - 1997, 8 april. – p. 9

[7] Энциклопедия азербайджанского мугама / автор и состав. С.Агаева. – Баку: Шарг-Гарб, – 2012. – с. 131-132

[8] Abdulləliyev, A.Ə. Ömür nəğməsi // – Bakı: Konservatoriya, – 2009. № 3-4 may-iyun, iyul-avqust, – s. 7-19

[9] Əhmədova, G. İlk dəfə "Saz məktəbi" adlı dərslik işıq üzü görüb / TrendLife – 12 iyun, 2008: [Elektron resurs] / URL: https://az.trend.az/azerbaijan/society/1222050.html

[10] Əmirli, Ə. Bütün deyilənlərə rəğmən və ya Ağa Məhəmməd şah Qacar: [Elektron resurs] / URL: https://www.azadliq.org/a/24922994.html

[11] Quliyev, A.N. Tükənməz enerjili sənətkar // – Bakı: Konservatoriya, – 2019. № 4 (46), – s. 5-8

mədəni əlaqələrindən, bu musiqi layihələrinin rəhbəri kimi S.Kəriminin bu əlaqələrin genişlənməsində xüsusi rolundan bəhs edən “Siyavuş Kəriminin multikultural lahiyələri”[12] adlı məqalələrini qeyd edə bilərik.

Göstərilən cəhətlər bizim müraciət etdiyimiz mövzunun aktuallığını bir daha önə çəkir və sənətçinin yaradıcılığının dərindən araşdırılmasına ehtiyac olduğunu vurğulayır.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini görkəmli sənətkar S.Kəriminin yaradıcılığı təşkil edir. Onun predmetini isə S.Kəriminin bir bəstəkar kimi bəstələdiyi mahnılarının, teatr tamaşaları üçün yazdığı musiqinin üslub xüsusiyyətlərinin müəyyənləşdirilməsi, onun elmi-pedaqoji istiqamətdə, xüsusən də, milli alətlərin təkmilləşdirilməsi sahəsində fəaliyyətinin öyrənilməsi təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın əsas məqsədi S.Kəriminin yaradıcılıq fəaliyyətinin əsas istiqamətlərinin müəyyənləşdirilməsindən ibarətdir. Bundan irəli gələrək dissertasiyada aşağıdakı vəzifələr qarşıya qoyulur və onların həll edilməsi zəruri sayılır:

1. S.Kəriminin istedadlı musiqiçi, ictimai xadim və pedaqoq kimi formalaşmasında yaşayıb-yaratdığı mədəni mühitin rolunun göstərilməsi;
2. Yaradıcılıq fəaliyyətinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi və bunların hər birinin ayrılıqda tədqiqi;
3. S.Kəriminin bəstəkarlıq yaradıcılığının əsas şaxələrini – mahnılarını və teatr tamaşalarına bəstələdiyi musiqisini seçərək təhlil etmək;
4. Onun elmi-pedaqoji fəaliyyəti sahəsində əldə etdiyi əsas nailiyyətlərini işıqlandırmaq, bir folklorşünas-orqanoloq kimi əməyini dəyərləndirmək;
5. Sənətkarın bütün yaradıcılıq fəaliyyətini milli musiqi mədəniyyəti kontekstində elmi-nəzəri baxımdan təhlil etmək;

---

[12] Qulamova, J.E. Siyavuş Kəriminin multikultural layihələri // Qloballaşan dünyanın musiqi ənənələri. I Beynəlxalq elmi–praktik konfrans, – Bakı: – 26-27 oktyabr, – 2017, – s. 254-259

6. Yaradıcılığının əsas xüsusiyyətlərini və üslub cizgilərini aşkarlamaq;

7. Dissertasiyada təqdim olunan materialın öyrənilməsi əsasında sənətkarın yaradıcılıq fəaliyyəti haqqında təsəvvürləri və elmi biliyi genişləndirmək və sairdən ibarətdir.

**Tədqiqat metodları.** Dissertasiyada S.Kəriminin yaradıcılığ fəaliyyəti, yaradıcılığının əsas istiqamətləri bütöv tam kimi baxıldığına görə kompleks yanaşma metodundan istifadə edilmişdir. Sənətkarın yaradıcılıq fəaliyyətini tarixi, analitik və müqayisəli təhlil metodları tətbiq olunaraq öyrənmək mümkündür. Bu metodlar vasitəsilə S.Kəriminin yaradıcılığının həm bəstəkarlıq, həm aranjimançılıq, həm elmi-tədqiqatçı və pedaqoji-maarifləndici aspektlərini daha düzgün öyrənmək üçün geniş imkanlar yaranır. Belə ki, onun əsərlərinin musiqi dilinin təhllii üçün musiqişünaslıqda qəbul olunmuş nəzəri təhlil metodlarından istifadə olunur. Xüsusilə, bəstəkarın mahnılarının və teatr tamaşalarına yazdığı musiqisinin təhlili zamanı bu sahədə ixtisaslaşmış musiqişünasların elmi müddəaları əsas mənbə kimi götürülmüşdür. Bunlardan, ilk növbədə, Ü.Ə.Hacıbəylinin[13], Bülbül[14], Ə.B.Bədəlbəyli[15], M.C.İsmayılov[16], R.F.Zöhrabov[17], E.Ə.Babayev[18], İ.M.Əfəndiyeva [19], T.A·Məmmədov [20], F.Ş.Əliyeva [21],

---

[13] Hacıbəyli, Ü.Ə. Azərbaycan xalq musiqisinin əsasları / Ü.Ə.Hacıbəyli. – Bakı: Apastrof, – 2010. – 176 s.

[14] Bülbül. Seçilmiş məqalə və məruzələri / Bülbül. – Bakı: AEA-nın nəşri, – 1968. – 138 s.

[15] Bədəlbəyli, Ə.B. İzahlı monoqrafik musiqi lüğəti / Ə.B.Bədəlbəyli. – Bakı: Şərq-Qərb, – 2017. – 472 s.

[16] İsmayılov, M.C. Azərbaycan xalq musiqisinin janrları: Yenidən işlənmiş və tamamlanmış nəşr / M.C.İsmayılov. – Bakı: İşıq, – 1984. – 100 s.

[17] Zöhrabov, R.F. Azərbaycan muğamları / R.F.Zöhrabov. – Bakı: Təhsil, – 2013. – 336 s.

[18] Babayev, E.Ə. Azərbaycan muğamlarının nəzəri əsasları. Dərslik. / E.Ə.Babayev. – Bakı, MTM İnnovation MMC, – 2018. – 368 s.

[19] Əfəndiyeva, İ.M. Axtarış yollarının bəhrəsi / İ.M.Əfəndiyeva. – Bakı: Zərdabi LTD MMC, – 2014. – 524 s.

[20] Məmmədov, T.A. Azərbaycan xalq-professional musiqisi: aşıq sənəti. Dərslik. / T.A.Məmmədov. – Bakı: Şur, – 2002. – 96 s.

[21] Əliyeva, F.Ş. Azərbaycan musiqisində üslub axtarışları / F.Ş.Əliyeva. – Bakı: Elm, – 1996. – 118 s.

C.E.Mahmudova[22], C.İ.Həsənova[23] və başqalarının elmi əsərlərinə istinad edilmişdir. Bununla yanaşı rus tədqiqatçılarından B.V.Asafyev [24], Q.L.Qolovinskiy [25], L.A.Mazel [26], və İ.İ.Zemtsovskinin[27] araşdırmalarının nəticələri də nəzərə alınmışdır.

Nəzəri araşdırma zamanı bəstəkarın mahnılarının, aranjimanlarının not nümunələrindən və müxtəlif müğənnilərin ifasından ibarət audio və video yazılarından müqayisəli təhlil üçün istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Dissertasiyada S.Kəriminin yaradıcılığının tədqiqi baxımından əsas istiqamətləri irəli sürülmüşdür:

- Siyavuş Kəriminin yaradıcılıq fəaliyyətinin əsas istiqamətlərinin izlənilməsi;
- S.Kəriminin elmi-tədqiqat işlərinin işıqlandırılması;
- Bəstəkarın mahnılarının üslub xüsusiyyətlərinin müəyyənləşdirilməsi;
- S.Kəriminin bəstəkar və xalq mahnı işləmələrinin aranjiman edilməsində özünəməxsusluğun aşkarlanması;
- Bəstəkarın teatr tamaşalarına yazdığı musiqinin dramaturji xüsusiyyətlərinin müəyyən edilməsi.

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, Azərbaycan musiqişünaslığında ilk dəfə olaraq dissertasiya səviyyəsində S.Kəriminin yaradıcılıq fəaliyyətinin müxtəlif sahələri müəyyənləşdirilmiş, bunların hər biri hərtərəfli araşdırılmış, onun

---

[22] Mahmudova, C.E. Azərbaycan bəstəkar mahnılarında poeziya ilə musiqi / C.E.Mahmudova. – Bakı: Mars, – 2009. – 253 s.

[23] Həsənova, C.İ. Azərbaycan bəstəkarlarının əsərlərində milli ladların təzahürü. Dərslik. / C.İ.Həsənova. – Bakı: Mars-Print, – 2004. – 136 s.

[24] Асафъев, Б.В. Музыкальная форма как процесс / Б.В.Асафъев. – Ленинград: Музыка, – 1971. – 376 с.

[25] Головинский, Г.Л. Композитор и фольклор: Из опыта мастеров XIX–XX веков / Г.Л.Головинский. – Москва: Музыка, – 1981. – 279 с.

[26] Мазель, Л.А. Строение музыкальных произведений / Л.А.Мазель. – Москва: Музыка, – 1979. – 536 с.

[27] Земцовский, И.И. Фольклор и композитор. Теоретические этюды о русской советской музыке / И.И.Земцовский. – Ленинград-Москва: Сов. композитор, – 1978. – 174 с.

müasir Azərbaycan musiqi mədəniyyətində xidmətləri dəyərləndirilmişdir.

Dissertasiyada ilk dəfə olaraq bizim tərəfimizdən S.Kəriminin yaradıcılıq fəaliyyətinin əsas aspektləri müəyyənləşmiş, onun bir bəstəkar kimi əsərlərinin, o cümlədən, mahnı və teatr musiqisinin, xüsusi olaraq, “Hamlet”, “Şah Qacar” və “Almaz” tamaşalarına yazdığı musiqinin nəzəri təhlili aparılmış, elmi-praktiki fəaliyyəti işıqlandırılmış, milli musiqi alətlərinin təkmilləşdirilməsində və daha yüksək səs effektinin alınmasında bir orqonoloq kimi əldə etdiyi nailiyyətləri vurğulanmışdır. Dissertasiyada, həmçinin, ilk dəfə olaraq, S.Kəriminin ifaçılıq və aranjimançılıq fəaliyyəti də tədqiq edilərək xalq və bəstəkar mahnılarının işləmələri ayrıca olaraq təhlil edilmişdir. Aparılan elmi tədqiqat işində qeyd olunan məsələlər milli musiqişünaslıqda ilk dəfə olaraq yerinə yetirildiyinə görə tədqiqatın elmi yeniliyini təyin edir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti** ondan ibarətdir ki, tədqiqatın materialından, onun əsas müddəalarından və əldə edildiyi ümumi nəticələrindən gələcək elmi-tədqiqat işlərində, ali və orta ixtisas musiqi məktəblərində xüsusi kursların, o cümlədən, “Azərbaycan musiqi tarixi”, “Azərbaycan bəstəkarlarının yaradıcılığı”, “Milli musiqinin problemləri” və s. predmetlərin tədrisində istifadə oluna bilər.

**Aprobasiyası və tətbiqi.** Tədqiqat işinin əsas nəticələri Azərbaycan, eləcə də, Türkiyə kimi ölkələrin beynəlxalq xülasələndirmə və indeksləmə sistemlərinə daxil olan dövri elmi nəşrlərində, elmi konfrans materiallarında əksini tapmışdır.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya Azərbaycan Milli Konservatoriyasının “Musiqinin tarixi və nəzəriyyəsi” kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi.** Dissertasiya giriş, üç fəsil, yeddi paraqraf, nəticə, istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir.

Dissertasiyanın struktur bölmələrinin həcminə gəlincə – giriş 6 səhifə 10 576 işarədən, I fəsil 44 səhifə 84 696 işarədən, II fəsil 55 səhifə, 76 537 işarədən, III fəsil 23 səhifə 33 256 işarədən, nəticə isə

4 səhifə 6357 işarədən ibarətdir. Tədqiqat işinin ümumi həcmi isə istifadə edilmiş ədəbiyyat siyahısı istisna olunmaqla 132 səhifə, 211 422 işarədən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** hissəsində məzmunun aktuallığı və işləmə dərəcəsi əsaslandırılır, onun elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, o cümlədən elmi araşdırmada tətbiq olunan metodlar, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti müəyyənləşdirilir.

Dissertasiyanın **I fəsli "Siyavuş Kəriminin professional yaradıcılıq fəaliyyətinə bir nəzər"** adlanır. Bu fəsil iki paraqrafdan təşkil edilmişdir.

Birinci paraqraf **"Siyavuş Kəriminin həyat və yaradıcılıq yolu"** adlanır. Burada onun yaradıcılıq bioqrafiyasının professional fəalliyyətinin bir neçə istiqaməti müəyyənləşdirilir: ifaçılıq, bəstəkarlıq, elmi-pedaqoji fəaliyyət və s. Bu istiqamətlərin arasında bağlılıq, hətta ayrılmaz vəhdət müşahidə olunur. Onların hər biri ayrı-ayrılıqda inkişaf yoluna, faktlara, əhəmiyyətə malikdir, lakin birlikdə həyat-yaradıcılıq bioqrafiyasını təşkil edirlər.

Bu paraqrafda S.Kərimini peşəkar musiqiçi kimi səciyyələndirən bəstəkarlıq yaradıcılığının araşdırılması qarşıya əsas məqsəd qoyulur. Onun 1990-cı illərdən başlayan bəstəkarlıq yaradıcılığı sənət bioqrafiyasında yeni və parlaq mərhələ kimi qeyd edilir. S.Kəriminin bəstəkarlıq yaradıcılığı böyük istedadının, zəngin yaradıcılıq təcrübəsinin və daxili mənəvi tələbatının məhsulu kimi təşəkkül tapmışdır.

Burada S.Kəriminin tərcümeyi-halına, yaşayıb-boya çatdığı, təhsil aldığı dövrə də geniş yer verilmişdir.

Onun estrada musiqisi sahəsində təcrübə əldə etməsi, estrada musiqisinə xas olan ifa üslubunu öyrənməsi və estradaya ciddi maraq göstərməsində fəaliyyətə başladığı Dövlət Mahnı Teatrının, dünya şöhrətli müğənni R.Behbudov başda olmaqla bu sənət ocağında

toplanan sənətkarların, o cümlədən, R.Babayevin böyük rolu olduğu göstərilir.

Dövlət Mahnı Teatrından sonra görkəmli sənətkar Polad Bülbüloğlunun yaratdığı "Aşıqlar" vokal-instrumental ansamblında çalışması S.Kəriminin ifaçılıq bioqrafiyasında mühüm bir mərhələ kimi qeyd olunur. Yeni mahnılar üzərində aramsız məşqlər, milli və caz-estrada üslubunun sintezi, aranjiman etmək, davamlı konsertlər vermək S.Kəriminin professional musiqiçi kimi inkişafında mühüm rol oynamışdır. Bundan sonra Azərbaycan Televiziyası və Radiosunun estrada-simfonik orkestrində çalışması zirvəyə gedən yolda parlaq və mühüm səhifəyə çevrildi. Nəhayət, Xalq artisti, estrada və caz ifaçılığı tarixində mühüm rolu olan, bəstəkar və cazmen Rafiq Babayev ilə yaxın sənət dostluğu S.Kəriminin yaradıcılığını daha bir yeni mərhələyə daxil etdi. Bu, "Cəngi" (1991) folklor-caz ansamblı idi.

"Aşıqlar" və "Cəngi" qrupları öz iş metodlarında milli zəminə, caz harmoniya və ritmlərinin milli köklərlə sintezinə üstünlük verdikləri üçün Azərbaycanda müasir etnocaz mədəniyyətinin və ifaçılığının meydana gəlməsində böyük rol oynamışlar. Bu işdə S.Kərimi də bilavasitə iştirak etmiş, yeniləşmə və inkişaf proseslərinə öz layiqli töhfəsini vermişdir. Onun bu kollektivlərdə topladığı təcrübə bəstəkarlıq yaradıcılığına əhəmiyyətli təsir göstərmişdir.

İşdə S.Kəriminin bəstəkarlıq fəaliyyəti iki aspketdə qiymətləndirilir: 1. ifaçı-bəstəkar; 2. bəstəkar-ifaçı. Birinci aspekt S.Kəriminin həyat-yaradıcılıq bioqrafiyasını xronoloji cəhətdən ifadə edir. Yəni onun bəstəkarlıq fəaliyyətinin yaradıcı-ifaçı təbiətindən və təcrübəsindən təşəkkül tapdığını göstərir. İkinci aspekt isə bəstəkar S.Kərimini həm öz əsərlərini, həm də digər bəstəkarlarının əsərlərini konsert səhnəsində, dinləyici auditoriyası qarşısında ifa edə bilən professional musiqiçi kimi təqdim etməyə əsas verir.

S.Kəriminin professional bəstəkarlıq fəaliyyəti üç istiqamətdə inkişaf etmişdir: 1. Mahnı janrında bəstələr və aranjimanlar; 2. Teatr musiqisi; 3. Kino musiqisi.

Onun teatr musiqisində müxtəlif müəlliflərin əsərləri, rəngarəng janr və üslublarda yazılan dramlar yer almışdır. Bu əsərlər aşağıdakılardır: V.Şekspir. "Hamlet" (quruluşçu rejissor

A.P.Nemətov, ilk tamaşa 07.12.2002); M.F.Axundzadə. "Sərgüzəşti-vəziri-xani-Lənkəran" (quruluşçu rejissor V.İbrahimoğlu, rejissor T.Mustafayev, ilk tamaşa 19.03.2011); C.Cabbarlı. "Almaz" (tamaşanın müəllifi, quruluşçu rejissoru və rəssamı Azər Paşa Nemətov, ilk tamaşa 21.01.2017); H.Cavid. "Afət" (quruluşçu rejissor M.Ələkbərzadə); A.Miller. "Körpüdən mənzərə" (quruluşçu rejissor M.Fərzəlibəyov, ilk tamaşa 23.10.2007); Elçin. "Poçt şöbəsində xəyal" (quruluşçu rejissor M.Ələkbərzadə, ilk tamaşa 2001); Əli Əmirli. "Şah Qacar" (quruluşçu rejissor A.P.Nemətov, ilk tamaşa 13.07.2013); Ə.Əmirli. "Mesenat" (quruluşçu rejissor B.Osmanov, ilk tamaşa 2015-2016-cı teatr mövsümü); H.Mirələmov. "Xəcalət" (quruluşçu rejissor B.Osmanov, ilk tamaşa 16.06.2016); T.Cücenoğlu "Uçqun" (quruluşçu rejissor B.Osmanov,ilk tamaşa 08.12.2007); Ə.Əmirli "Ah bu uzun sevda yolu" (quruluşçu rejissor A.P.Nemətov, ilk tamaşa 30.06.2018); Yuri Polyakov "Sinif uşaqları" (quruluşçu rejissor A.P.Nemətov, ilk tamaşa 25.05.2018); C.Məmmədquluzadə "Dəli yığıncağı" (quruluşçu rejissor B.Osmanov, ilk tamaşa 2019); C.Cabbarlı "Yaşar" (quruluşçu rejissor M.Fətullayev, E.Əsgərov, ilk tamaşa 30.11.2019).

Qeyd edək ki, "Hamlet" tamaşasına yazdığı musiqiyə görə, S.Kərimi 2003-cü ildə "Qızıl dərviş" milli mükafatına layiq görülmüşdür.

S.Kəriminin bir bəstəkar kimi yaradıcılığında kino sənəti də mühüm yer tutur. Onun kino sənətinə bəstəkar kimi marağının əsasında bioqrafiyasının "kinostudiya səhifələri" dayanır. Bəstəkarın yazdığı kino musiqisi müxtəlif janrlı və məzmunlu filmləri əhatə etmişdir: sənədli filmlər, bədii filmlər, faciəvi, lirik, psixoloji filmlər, tarixi, vətənpərvərlik, məhəbbət, yumoristik mövzulu filmlər və s. Bunlardan: "Qaravəlli" (1989), "Qaravəlli-2" (1992), "Çalışan adam" (1996), "Son döyüş" (1996), "Sarı gəlin" (1998), "Heydər Əliyev" (1999-2013, 9 seriyalı), "Girov" (2005), "Əlvida, cənub şəhəri" (2006), "Kabusun gözüylə" (2010), "İlahi məxluq" (2011), "Dərvişin qeydləri" (2013).

S.Kəriminin ifaçılıq və bəstəkarlıq yaradıcılığının vəhdətindən meydana gələn musiqi layihələri də xüsusi araşdırma predmeti kimi elmi maraq doğurur. Bu layihələr musiqi mədəniyyətimizin dünya

miqyasında tanınmasında, xalqmızın musiqi incilərinin başqa xalqlarının musiqisi ilə sintez olunmasında, musiqi ifaçılığında yeni və maraqlı ideyaların aktuallaşmasında böyük rol oynamışlar. İlk növbədə, onun rəhbərliyi ilə 1997-ci ildə gerçəkləşən Azərbaycan-Norveç və 2002-ci ildə həyata keçən Azərbaycan-Cənubi Amerika musiqi layihələri qeyd olunur. Azərbaycan xalq mahnılarını Norveçin məşhur "SKRUK" xoru üçün aranjiman edən S.Kərimi bu kollektivin özünəməxsus ifa üslubunu və ənənələrini dərindən öyrənmiş, layihənin uğurla gerçəkləşməsinə nail olmuşdur.

Bundan təkan alaraq sonrakı illərdə Azərbaycan-Latın Amerikası musiqiçilərinin birgə hazırladıqları "Salam-Hola" layihəsinin həyata keçməsi mümkünləşir. Bütün bu layihələrin hazırlanmasında əsas məqsəd bir tərəfdən, ölkələrarası musiqi-mədəni əlaqələrin daha da genişlənməsindən, digər tərəfdən, Azərbaycan musiqisini dünya musiqi məkanına tanıdılması və təbliğ edilməsindən ibarət idi.

Birinci fəslin ikinci paraqrafı **"S.Kəriminin elmi-tədqiqat işləri"** adlanır.

Professor S.Kərimi özünün zəngin, dəyərli elmi və pedaqoji fəaliyyəti ilə milli musiqi elminin və təhsilinin inkişafına mühüm töhfələr vermişdir.

Görkəmli incəsənət və təhsil xadiminin elmi-pedaqoji nailiyyətlərinin zirvəsində "Saz məktəbi" dərsliyi dayanır. Bu dərslik S.Rüstəmovun Azərbaycan tarının tədrisində "Tar məktəbi", S.Əbdüləlimovun balabanın tədrisində "Balaban məktəbi", R.Mirişlinin kamançanın tədrisində "Kamança məktəbi", T.Əliyevanın qanun alətinin tədrisində "Qanun məktəbi" dərsliklərinin əsas və dəyərli məqsədlərini davam etdirir. "Saz məktəbi" öz elmi-metodik səviyyəsinə, tərtibinə və məzmununa görə respublikamızda xalq çalğı alətlərinin tədrisində böyük rol oynayan və musiqi tərbiyəsində onilliklər ərzində zəngin pedaqoji təcrübə bazası yaradan dərsliklərlə bir sırada dayanır.

Bu dərs vəsaitinin həmmüəllifləri AMK-nın "Musiqi tarixi və nəzəriyyəsi" kafedrasının müdiri, Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor A.Quliyev və AMK-nın dosenti, sənətşünaslıq üzrə fəlsəfə doktoru, aşıq M.Əliyevdir. Dərs

vəsaitinin elmi redaktoru görkəmli aşıqşünas-alim, Əməkdar incəsənət xadimi, sənətşünaslıq doktoru, professor T.Məmmədov, rəyçiləri görkəmli alimlər və təcrübəli pedaqoqlar – professorlar V.Əbdülqasımov, M.Kərimov, M.Qasımlı və bəstəkar C.Quliyevdir. Bu dərslik hazırlanana qədər geniş folklor ekspedisiyası aparılmış, ustad sənətkarların (Şəadət Gülməmmədov, Murad Niyazlı, Əhməd Sadaxlı, İsfəndiyar Rüstəmov, Ədalət Nəsibov, Mais Məmmədov, Yanvar Bədəlov, Dehqan və Həsən İskəndəriyə) təcrübəsindən geniş istifadə olunmuşdur.

Hörmətli professorumuz Tariyel Məmmədovun təşəbbüsü ilə "Saz məktəbi" dərsliyinin əsasında eyni adlı elektron dərslik də yaradılmışdır.

S.Kəriminin elmi-pedaqoji fəaliyyətinin daha bir mühüm istiqaməti xalq mahnılarımızın nota yazılmasından və nəşrindən ibarətdir. Onun nota yazdığı xalq mahnıları iki cilddən ibarət toplu kimi 2005-ci ildə "Öndər" nəşriyyatında çap olunmuşdur.

S.Kərimi əvvəlki məcmuələrə salınan bəzi xalq mahnılarının not yazılışı ilə raşılaşmadığına görə onları bir daha dinləmiş, əvvəlki not yazısı üzərində elmi redaktə işləri aparmış, yenidən nota yazaraq məcmuəsinə daxil etmişdir. Bəzi mahnıların isə tam mətni bərpa olunmuş və redaktə edilmişdir. Bu məcmuədə ilk dəfə nota salınan "Sarı gəlin" xalq mahnısı da vardır. Məlum olduğu kimi, bu qədim xalq mahnımız XX əsrdə nəşr olunan mahnı məcmuələrinə daxil edilməmişdir. O, xalq mahnısını ilk dəfə nota salaraq birinci cildə daxil etmişdir.

S.Kəriminin tədqiqatlarının başlıca istiqamətlərindən biri də qədim musiqi alətlərinin elmi-praktik əsaslarla təkmilləşdirilməsidir. Bu məqsədlə o, AMK-da yaradılmış "Milli musiqi alətlərinin təkmilləşdirilməsi" elmi laboratoriyasının müdiri vəzifəsinə mühəndis-konstruktor Məmmədəli Məmmədovu təyin etmişdir. S.Kərimi həmmüəlliflərlə birlikdə milli musiqi alətlərimizin ifaçılıq imkanlarının nəzəri göstəriciləri, riyazi üsullarla hesablanması, bu imkanların dəqiq elmlər vasitəsilə daha da artırılması üzərində laborator eksperiment və tədqiqatlar apararaq, bir sıra maraqlı nəticələr əldə etmişdir. Bu sahədə görülən elmi-praktik yeniliklər və onların uğurlu nəticələri onun həmmüəllifi olduğu elmi jurnallarda

və mətbuatda dərc olunan məqalələrdə, elmi konfrans məruzələrində öz əksini tapmışdır.

Bu məqalələrdən onun M.Məmmədovla birgə yazdığı və milli alətlərimizin təkmilləşdirilməsinə dair proqram əhəmiyyəti daşıyan "Milli alətlərin təkmilləşdirilməsində texniki elmlərdən istifadə qaydaları" [28] və görkəmli tar ifaçısı və pedaqoqu, xalq artisti, professor A.Abdullayev ilə birlikdə yazdığı "Tar çanağında konstruktiv dəyişikliklər etməklə səs effektinin yaxşılaşdırılması"[29] həmçinin, M.Məmmədov və tanınmış kamança müəllimi və ifaçısı, xalq artisti F.Dadaşov ilə birlikdə yazdığı "Kamançada səs effektinin yaxşılaşdırılması"[30] məqalələrində həyata keçirilən təcrübələrin elmi izahı verilmişdir .

S.Kəriminin ölkənin mədəni həyatında baş verən əlamətdar hadisələr haqqında yazdığı məqalələri də aktuallığı ilə diqqəti cəlb edir. Bunlardan 2009-cu ildə Heydər Əliyev Fondunun layihəsi əsasında "Muğam aləmi" I Beynəlxalq musiqi festivalında keçirilən muğam müsabiqəsinin əhəmiyyəti "Muğamın təntənəsi" [31] adlı məqalədə öz dolğun ifadəsini tapmışdır. S.Kərimi bu məqaləsində festivalın və müsabiqənin muğam sənətinin təbliğində, ifaçılığın inkişafında və yeni istedadlı gənclərin meydana gəlməsində rolunu yüksək qiymətləndirərək, onu "tarixi bir hadisə" adlandırmışdır.

S.Kərimi aktuallığını heç vaxt itirməyən problemlər üzərində düşünərək mütəmadi olaraq maraqlı məqalələri ilə çıxış edir. Məsələn, onun "Musiqi və poeziya" [32] məqaləsində musiqi ilə poeziyanın bədii münasibətlərinin əsas aspektləri və məsələləri ümumiləşdirilmişdir, "Qrammafon valları – səs yaddaşımız"[33] adlı

---

[28] Kərimi, S.Ə., Məmmədov, M. Musiqi alətlərimizin təkmilləşdirilməsində texniki elmlərdən istifadə qaydaları // – Bakı: Konservatoriya, – 2014. № 2 (24). – s. 12-18

[29] Kərimi, S.Ə., Abdullayev, A., Məmmədov, M. Tar çanağında konstruktiv dəyişikliklər etməklə səs effektinin yaxşılaşdırılması // – Bakı: Konservatoriya, – 2012. № 3 (17). – s. 62-65

[30] Kərimi, S.Ə., Dadaşov, F., Məmmədov, M. Kamançada səs effektinin yaxşılaşdırılması // – Bakı: Konservatoriya, – 2012. № 4 (18). – s. 78-81

[31] Kərimi, S.Ə. Muğamın təntənəsi // – Bakı: Konservatoriya, – 2009. № 2. – s. 3-8

[32] Kərimi, S.Ə. Musiqi və poeziya // – Bakı: Konservatoriya, – 2009. № 3-4. – s. 3-6

[33] Kərimi, S.Ə. Qrammafon valları – səs yaddaşımız // – Bakı: Konservatoriya, – 2010. № 1. – s. 6-9

məqaləsi isə musiqi ictimaiyyətimizi, hər bir vətəndaşı ciddi düşündürən çox aktual bir mövzuya həsr olunmuşdur. Musiqi səslərinin kosmik harmoniya, bəşəri ahəng, mifoloji şüur, mistika və rənglərlə əlaqələrindən bəhs edən "Musiqi səslərinin simvolikası" [34] məqaləsi S.Kəriminin maraqla qarşılanan elmi məqalələrindən biridir.

Qloballaşma dövründə milli musiqi ənənələrinin qorunması və gələcək nəsillərə çatdırılması S.Kərimini hər zaman düşündürür. Onun təşəbbüsü və təşkilatçılığı sayəsində 2017-ci ildə Azərbaycan Milli Konservatoriyasında keçirilən və məhz bu problemə həsr olunan Beynəlxalq elmi simpoziumda S.Kəriminin təqdim etdiyi "Milli musiqi alətlərimizi dünyaya tanıtmalıyıq"[35] məqaləsi də milli musiqi dəyərlərinə, bu zəngin və qiymətli dəyərlərin qorunmasına və dünyada layiqincə təbliğinə həsr olunmuşdur.

S.Kərimi onlarla məqaləyə, kitablara rəylər yazmış, elmi konfranslarda məsləhətçi və ya redaksiya heyətinin üzvü olmuşdur. O, musiqi tədrisini dərslik və aktual mövzularda yazılmış məqalələrlə, ideyalarla və təkliflərlə zənginləşdirmişdir.

Dissertasiyanın **II fəsli "Siyavuş Kəriminin vokal yaradıcılığı"** adlanır. Bu fəsil iki paraqrafdan ibarətdir. Birinci paraqraf **"S.Kəriminin bəstələdiyi mahnıların üslub xüsusiyyətləri"** adlanır.

S.Kəriminin yaradıcılığı XX əsrin II yarısında fəaliyyət göstərən Rəşid Behbudovun musiqi teatrı, "Aşıqlar" və "Cəngi" estrada kollektivlərinin fəaliyyəti ilə sıx bağlı olmuşdur. Məhz bu estrada kollektivlərinin yüksək peşəkarlığı kontekstində onun estrada ifaçılığının üslub xüsusiyyətləri formalaşmışdır ki, bu da öz növbəsində bəstəkarın mahnı yaradıcılığına təsirini göstərmişdir.

Azərbaycan estrada musiqisinin zəngin ənənələri üzərində yetişən S.Kəriminin mahnıları özünün ifadə vasitələrinin gözəlliyi və zənginliyi, professionallığı, milli musiqi mənbələrilə bağlılığı, lirik

---

[34] Kərimi, S.Ə. Musiqi səslərinin simvolikası // – Bakı: Konservatoriya, – 2010. № 2. – s. 3-5

[35] Kərimi, S.Ə. Musiqi alətlərimizi dünyaya tanıtmalıyıq // Azərbaycan milli musiqi alətlərinin patentlə mühafizəsi: Respublika elmi-praktik konfransın materialları. – Bakı: Patent və Əmtəə Nişanları Mərkəzi – 2017. – s. 31-34

obrazlılığı, melodik özünəməxsusluğu ilə seçilərək Azərbaycan estrada musiqisinin inkişafında xüsusi mərhələ təşkil edir. Demək olar ki, mahnı janrı onun bəstəkarlıq üslubunun formalaşmasında əsl "yaradıcılıq laboratoriyası", mühüm sınaq sahəsi olmuşdur.

Onun mahnıları təkcə obrazlı məzmunun genişliyi ilə deyil, həm də özündə müxtəlif ifadə vasitələrinin – xalq və müasir kütləvi mahnı janrının və mahnı mədəniyyətinin sintezinə nail olması ilə diqqəti cəlb edir. Burada məzmunlu və müxtəlif musiqi-ifadəli tərəflərin qarşılıqlı əlaqəsi nəticəsində orijinal musiqi kompozisiyaları yaranır.

S.Kəriminin mahnılarında onun musiqisinin üslubyaradıcı xüsusiyyətləri öz parlaq əksini tapmışdır: xalq mahnı işlənilməsinin prinsipləri; professional lirik mahnıvariliyin inkişafı; milli və müasir estrada mahnı intonasiyalaşmasının sintezi (etnocaz təmayülü) və s. Onun mahnı yaradıcılığında professional səviyyədə Azərbaycan estrada musiqisi və musiqi folklorunun müasir xarici estrada, caz və rok musiqisinin intonasiya dəyərləri ilə sintezi müşahidə olunur.

S.Kərimi mahnılarını müasir Azərbaycan şairlərinin (R.Rza, C.Novruz, İ.Dadaşov, S.Həqqi, N.Hacızadə və b.) sözlərinə bəstələmişdir. Onun mahnılarını mövzu dairəsinə görə bir neçə qrupa bölmək olar:

1. Sevgi-məhəbbət mövzusu ("Ömrümün istəyi", "Səni röyalarda axtaracağam", "Sənsizləmişəm", "Sənsizlik ağrısı", "Gəl, gəl, gəl, gözəlim" və s.);

2. Patriotik mövzulu. ("Qarabağ", "Şuşam mənim", "Ana torpaq", "Dinlə dünya", "Fəxr edir oğlunla" və s.);

3. Müxtəlif mövzulu ("Ötüşür zaman", "İllər", "Təzadlar", "Möcüzələr adası", "Bayram axşamı" və s.);

4. Himn-mahnılar. ("Uşaq himni", "Azərbaycan Universitetinin himni" , "Azərbaycan Milli Dram Teatrınn himni" və s.).

Lirik mahnıların çoxunda vahid obrazlı-emosional ahəngə uyğun olan motivlərin intonasiya qohumluğu özünü göstərir. Məsələn, daha çox şüştərə əsaslanan mahnıların (S.Həqqinin sözlərinə "Gəl, gəl, gəl, gözəlim", "Ömrümün istəyi" və "Sənsizləmişəm", İ.Dadaşovun sözlərinə "Sənsizlik ağrısı", C.Novruzun sözlərinə "Gecikmiş məhəbbət" və s.) nümunəsində bunu aydın görmək olar. Məlumdur ki, şüştər Azərbaycan lad

sistemində qəmgin, kədərli əhval-ruhiyyə oyadan muğamdır. Mahnıların intonasiya əsası üçün bu ladın seçilməsi onların obrazlı-emosional məzmununa tamamilə uyğundur. Bəstəkarın lirik mahnıları, demək olar ki, mülayim, asta templidir ki, bu da onların xarakterindən, obrazlar aləmindən irəli gələn cəhətdir.

Lirik mahnıların xalq lirik mahnı janrı ilə əlaqəsi onların intonasiya quruluşunda aydın özünü göstərir: melodik xəttin düzümündə, melodik dönmələrin zirvədən aşağı enən hərəkətində, dayaq pərdələrin oxunmasında və onlara istinad edilməsində, sekvent inkişaf prinsipinin tətbiqində, lad-intonasiya məzmunundan irəli gələn xarakter kadans dönmələrin istifadəsində və s.

Mahnıların musiqi-tematik təşkilində müşayiətin fakturası da əhəmiyyətli rol oynayır. Belə ki, məhz müşayiətin ifadəli, yadda qalan vasitələrlə təşkili obrazın, bədii ideyanın qavranılmasına təsir edir. Mahnıların həm tematik, həm də forma təşkilində vacib ifadə vasitəsi olan faktura işləməsində bəstəkarın fərdi üslubu özünü daha qabarıq göstərir. Mahnının əsas obraz məğzinin göstəricisi olan müəyyən faktura tipinə (ostinat fon, polifonik səslərin hörülməsindən əmələ gələn çoxsəslilik, unison ifa, geniş registr əhatəsi və s.) sadiq qalmasını onun həm xalq mahnı işləmələrində, həm də öz yaradıcılıq məhsulu olan mahnılarında müşahidə etmək olar.

Mahnıların girişləri xüsusilə diqqəti cəlb edir. Burada bəstəkar hər dəfə yeni tapıntısı ilə maraq doğurur. Girişlərdə, həmçinin, bəstəkarın aranjiman etmə bacarığı özünü parlaq göstərir. Hər bir mahnı fərqli, özünəməxsus girişi, faktura işləməsi və aranjimanı ilə diqqəti cəlb edir.

Çox vaxt giriş mövzuların tematik materialı bütün mahnının özülünü təşkil edir. Belə ki, məhz onun intonasiyalarından vokal partiyanın mövzusu doğulur. Bu da bütöv əsərə tamlıq və bitkinlik verir. Girişin mövzusu çox vaxt vokal partiyada olduğu halda və ya dəyişdirilmiş şəkildə təkrarlanır.

Müşayiətdə müəyyən məna yükü daşıyan üslub qatların: caz, rok və milli – başlanğıcın uzlaşması (məsələn, "Ömrümün istəyi" mahnısında müasir ifadə vasitələrilə yanaşı kamançanın partiyasının muğam ifası daxil edilir) fərqli və təzadlı xətlər əmələ gətirir. Bu, daha çox bəstəkarın instrumental aranjimanlarında özünü göstərir.

Mahnıların metroritmi özünəməxsusluğu ilə seçilir. Burada zəngin və rəngarəng ritmik formullara rast gəlmək olar. Xüsusilə, mahnıların giriş hissələrində bəstəkar hər bir mahnının xarakterinə və ruhuna uyğun ritmik variantlar seçir. Burada həm oynaq, temperamentli (məsələn, "Sənsizləmişəm"), həm improvizasiya tərzli, sərbəst vəznli ("Ömrümün istəyi"), həm də müxtəlif ritmik xətlərin birləşdiyi poliritmik struktura və s. rast gəlirik.

S.Kəriminin mahnılarında istifadə etdiyi ritmik formullar milli mənbələrlə sıx bağlıdır. O, 6/8 metroritmik formulların müxtəlif variantlarından istifadə etməklə mahnılarının milli özünəməxsusluğunu, xüsusilə vurğulayır. Məlum olduğu kimi, çox parlaq və koloritli olan ritmoformulu və onun müxtəlif variantları Azərbaycan xalq musiqisinin xarakter musiqi elementlərindən biridir. Bundan əlavə, sinkopalı ritm də mahnılarda geniş tətbiq olunur .

Mahnıların melodiyasında poetik misraların dəqiq ritmi mühüm rol oynayır. Bəstəkar şeirin ritminə, sözlərin ritminə həssascasına yanaşır və melodik strukturun təşkilində şeirin ritmik vurğularına diqqət verir və onların musiqili frazalarda düzgün qoyuluşuna riayət edir.

Beləliklə, aparılan təhlillərdən belə bir nəticəyə gələ bilərik ki, S.Kəriminin mahnılarında musiqi və bədii sözün imkanlarından məharətlə istifadə olunaraq yadda qalan, yüksək sənətkarlıq keyfiyyətləri əksini tapmışdır.

İkinci fəslin ikinci paraqrafı **"S.Kərimin yaradıcılığında bəstəkar və xalq mahnılarının işləmələri"** adlanır.

S.Kəriminin işləmələrində həm bəstəkar yaradıcılığının özünəməxsusluğu, həm xalq mahnısı, həm də kütləvi mahnı mədəniyyəti ənənəsinin sintezi mühüm rol oynayır. Bu işdə birinci dərəcəli vəzifə kimi geniş xalq kütlələrinə yönəlmiş milli özünəməxsusluğun qoruyub saxlanılması durur.

Onun bəstəkar mahnılarının işlənməsində əvvəllər, daha öncədən xalq mahnılarının işlənməsi sahəsində əldə etdiyi təcrübə böyük rol oynamışdur. Bəstəkar mahnısının işlənməsində əsas cəhətləri göstərək: 1. Mahnının musiqi dilinin bütün səviyyələrinin – lad, intonasiya, metroritm, forma – mənimsənilməsi; 2. Mahnının

məzmunlu tərəfinin qavranılması və yenidən işlənməsi; 3. janr əsasının qorunub saxlanılması.

Deyilənləri təsdiqləmək məqsədilə dissertasiyada S.Rüstəmovun "Getmə" və C.Cahangirovun "Alagöz" mahnılarına müraciət olunur. Hər iki mahnını lirik əhval-ruhiyyə birləşdirir. Bu cəhət, ümumiyyətlə, S.Kəriminin işləmələri üçün çox səciyyəvidir. Bundan əlavə, "Getmə" və "Alagöz" mahnılarında ilkin mənbənin dəqiq melodik sitatı və vacib parametrləri – lad, ritm, forma saxlanılır; mahnıların obrazlı məzmunu qorunur, lakin variant dəyişkənliyi baş verir. Mahnının sözləri xalq bayatılarına əsaslanaraq onun lirik obrazlar aləmini xalq mahnısı ruhunda bəstələnən musiqi dili vasitəsilə ifadə edir. Məhz bu cəhət mahnıda milli özünəməxsusluğun əks olunmasına ciddi təsir edir.

Lirik xarakteri ilə seçilən C.Cahangirovun "Alagöz" mahnısının işləməsində də S.Kərimi öz fərdi üslubuna uyğun müşayiət partiyasını yerinə yetirir. Mahnının melodik, lad, metroritm, forma parametrlərini dərindən işləmədən o, yalnız müşayiət fakturasına bəzi yeniliklər əlavə edərək onun özünəməxsus şərhini təqdim edir.

Dissertasiyada mahnı işləmələrinin orijinallarla müqayisəli təhlili aparılır. S.Kəriminin mahnı işləmələrində onun hər bir bəstəkarın yaradıcılığına, onun üslub xəttinə böyük hörmət və ehtiramla yanaşması hiss olunur.

Xalq mahnılarının işləmələri bəstəkar və folklor arasında olan "dialoqu" dolğun əks etdirən ən maraqlı yaradıcılıq üsuludur. Onun "Laçın", "Qubanın ağ alması", "Küçələrə su səpmişəm", "Girdim yarın bağçasına", "Elə demə zalım yar", "Qara tellər" , "Dilbərim", "Sarı gəlin" xalq mahnılarının aranjimanları özünün sadəliyi və eyni zamanda, orijinallığı ilə diqqəti cəlb etmişdir.

S.Kəriminin yaradıcılığında xalq mahnısına münasibət bir neçə aspektdə özünü göstərir:

1. Mahnıların yeni nəslə ötürülməsi üçün özünün təfsirində onların ənənəvi şifahi formada ifası;

2. Xalq mahnılarının orijinallarının nota alınması;

3. Mahnıların özündə topladığı bədii vasitələr əsasında işlənərək nota alınması.

S.Kəriminin xalq mahnılarını estrada janrına transformasiya etməsi bunlara müasir intonasiya və ritmlərin əlavə edilməsi yolu ilə aparılır. Onun xalq mahnı işləmələrinin milli mənbələrlə estrada ifaçılığının qarşılıqlı əlaqəsində bu aspektlərə diqqət verilir: 1. Xalq mahnısının dəqiq sitatı saxlanılır; 2. Xalq mahnısının əsas obrazlı məzmunu və xüsusiyyətləri qorunur; 3. Bütün bunlarla yanaşı xalq mahnısı estrada ifaçılıq ənənələrinə tabe edilir.

İşləmələrdə homofon-harmonik faktura tətbiq olunur. Vokal partiyanın aparıcı melodik xətti fortepianonun müşayiəti ilə verilir. Lakin bu fakturada bəstəkar xalq mahnılarının ənənəvi çoxsəsliliyi üçün səciyyəvi olan burdon, imitasiya, səsaltı polifoniya kimi polifonik elementlərdən də istifadə edir.

Vokal partiyada xalq mahnısının özünəməxsus milli çalarları olduğu kimi qorunub-saxlanılır. Bununla belə xalq mahnılarındakı xanəndə oxumasının ənənəvi üslubu bu işləmələrdə estrada vokal texnikasının tələblərinə uyğunlaşdırılır.

Fortepianonun müşayiətində bəstəkar sağ əlin partiyasına xalq mahnısının məqam, melodiya, intonasiya, ritm, kadans xüsusiyyətlərinə əsaslanan tonal-funksional akkordlar, bəzən vokal partiya ilə üst-üstə düşən təksəsli melodiya, bəzən də imitasiya və digər polifonik elementlər daxil edir. Eyni zamanda, sol əldə xalq mahnısının məqamına məxsus olan istinad pərdələrini, eləcə də tonallıq pillələrini burdon və ya akkord səsi kimi eşidirik.

Beləliklə, S.Kəriminin xalq mahnı işləmələri bəstəkarın fərdi üslubunu, bədii təxəyyülünü, milli musiqiyə professional münasibətini əks etdirir və musiqişünaslıq üçün tədqiqat obyekti kimi böyük maraq doğurur.

Dissertasiyanın üçüncü fəsli **“Siyavuş Kəriminin teatr musiqisinin dramaturji xüsusiyyətləri”** adlanır. Bu fəsil üç paraqrafdan təşkil olunmuşdur. Fəslin birinci paraqrafı **“Hamlet” dramında əsas qəhramanın musiqi xarakteristikası” adlanır.**

S.Kərimi çox sayda teatr tamaşalarına yazdığı musiqisi ilə müasir Azərbaycan teatr sənətinin inkişafına öz töhfəsini vermişdir. Onun bu sahədə fəaliyyəti 2000-ci illərin əvvəlindən başlamışdır. İlk dəfə olaraq 2002-ci ildə dahi ingilis dramaturqu V.Şekspirin “Hamlet” tamaşasının Azərbaycan Dövlət Akademik Milli Dram

Teatrında uğurlu səhnə həyatının alınmasında S.Kəriminin musiqi tərtibatı da əhəmiyyətli rol oynamışdır ki, bu da onun teatr sahəsində fəaliyyətinə stimul vermişdir.

Dünya musiqi tarixində bir çox görkəmli bəstəkarlar V.Şekspirin "Hamlet" dram tamaşasına musiqi bəstələmişdir: F.List, H.Berlioz, A.Varlamov, P.Çaykovski, S.Prokofyev, D.Şostakoviç, Azərbaycanda ilk dəfə Q.Qarayev (1970) müraciət etmişdir. Yalnız 30 ildən sonra yenidən ADAMDT-nın səhnəsində rejissor A.P.Nemətin quruluşunda "Hamlet"ə yeni səhnə həyatı verilir. Bu dəfə tamaşanın hazırlanmasında rejissorla bərabər rəssam N.Bəykişiyev və bəstəkar S.Kəriminin yeni yozumu əsərə başqa fokusdan baxmağa kömək edir.

Bəstəkarın tamaşaya yazdığı musiqi Şekspir ruhunu, onun qəhrəmanlarının keçirdiyi hissləri onların "öz dilində" çatdırmağa müvəffəq olmuşdur. Onun böyük ustalığı da məhz qeyri-milli məzmunlu musiqi materialından "özününkü" kimi istifadə etməsindədir. Belə ki, bəstəkar ingilis xalq rəqs musiqisinin bütün xırdalıqlarını seçərək öz kompozisiyalarında bacarıqla tətbiq edir. Məsələn, müşayiətdə ritmik ostinat fon üzərində melodiyanın punktir ritmli dalğavarı hərəkəti qədim rəqslərin (djiqa və xornpayp) ritmik şəklini canlandırır. Bütövlükdə tamaşada musiqi sanki iştirakçılarla yanaşı bir obraz kimi çıxış edir.

Beləliklə, S.Kəriminin "Hamlet" tamaşasına yazdığı musiqi sadə, konkret və formaca aydındır. Bunu tamaşanın ilk premyerasında iştirak edən Ulu öndər Heydər Əliyevin bəstəkar işinə verdiyi qiymət də təsdiq edir: "çox gözəl musiqi müşayiəti var. S.Kərimi çox qeyri-adi, müasir bəstəkardır" – sözləri S.Kəriminin sonralar teatr musiqisi sahəsində əldə etdiyi daha yüksək nailiyyətlərə stimul vermişdir. Məhz "Hamlet" tamaşasında toplanan dərin təcrübə bu sahədə sonrakı fəaliyyəti üçün əsas zəmin olmuşdur.

Fəslin ikinci paraqrafı **"Şah Qacar" dramında musiqinin dramaturji əhəmiyyəti"** adlanır. S.Kəriminin rejissor A.P.Nemətovla uğurlu iş birliyi onun 2013-cü ildə Ə.Əmirlinin ssenarisi əsasında tamaşaya hazırlanan "Şah Qacar" tarixi faciəsinə yazdığı musiqi ilə davam etdirilmişdir.

S.Kəriminin belə bir dramatik-psixoloji tamaşaya yazdığı musiqi, hər şeydən öncə, illustrativ xarakter daşıyır ki, bu da teatr tamaşalarına bəstələnən musiqinin vacib funksiyalarından biridir. Məhz illustrativ musiqi tamaşaçıya səhnə hadisəsini tam qavramağa, burada görünən təəssüratları dərinləşdirməyə və genişləndirməyə kömək edir.

Bəstəkarın tamaşa üçün yazdığı üç musiqi nömrəsi – Proloq, Epiloq və "Uşaqlıq xatirələri" intonasiya məzmununa görə bir-birilə slx bağlıdır. Bu əlaqənin yaranmasına başlıca səbəb məqam əsasıdır. Qeyd edək ki, bütün musiqi parçaları şurun intonasiyaları üzərində qurulmuşdur. Musiqi nümunələrinin yeganə, vahid məqama – şura əsaslanması baş qəhrəmanın – Qacarın əsas obraz xarakteristikasının verilməsinə xidmət edir.

Tamaşada əsas qəhrəmanın xarakteristikası ilə bağlı daha bir mövzu da var ki, bu da Qacarın "Uşaqlıq xatirələri" ilə əlaqədardır. Bu musiqi nümunəsi tamaşada çoxaspektli funksiya daşıyır: 1. Baş qəhrəmanın uşaqlıq xatirələrini canlandırır; 2. Səhnə hadisələrinin əhval-ruhiyyəsini yaradır; 3. Tamaşaçı üçün görünməz olan hadisələr haqqında təəssürat yaradır.

Ümumiyyətlə, S.Kəriminin "Qacar" tamaşasına yazdığı musiqisi psixoloji-dramatik inkişafı yüksək həyəcan nöqtəsində saxlayaraq həm obrazın psixoloji aləmini açmağa, həm də bütövlükdə dramaturji emosional tamlıq yaratmağa xidmət edir.

Fəslin üçüncü paraqrafı **"Almaz" dramında obrazların musiqili xarakteristikası"**nın təhlilinə həsr olunmuşdur.

Görkəmli Azərbaycan dramaturqu C.Cabbarlının "Almaz" pyesinin teatr tamaşasına yazılan musiqi S.Kəriminin ADAMDT səhnəsində tamaşaya qoyulan əsərlər üçün yazdığı bəstələrindən biridir. Məlumdur ki, bu məşhur pyes ADAMDT-nın səhnəsində müxtəlif dövrlərdə və müxtəlif rejissorların təqdimatında dəfələrlə geniş tamaşaçı auditoriyasına çıxarılmışdır. 60 illik fasilədən sonra 2017-ci ildə ADAMDT yenidən bu əsərə qayıtmışdır. Teatrın bu son quruluşda təqdim etdiyi pyesin yeni səhnə redaksiyası Əməkdar İncəsənət xadimi Ə.Əmirli tərəfindən akademik N.Cəfərovun elmi məsləhətləri əsasında hazırlanmış, tamaşanın quruluşçu rejissoru və rəssamı A.P.Nemətov, bəstəkarı isə S.Kərimi olmuşdur.

S.Kəriminin “Almaz” tamaşasına yazdığı musiqi milli mənbələrlə sıx bağlıdır. Tamaşanın musiqisi əsasən lirik dramatik xarakter daşıyır. Burada daha çox baş qəhrəmanın daxili aləmi, mərd, iradəli xarakteri lirik ifadə vasitəsilə önə çəkilir. Məhz tamaşanın girişi də elə bu emosional sferanı nümayiş etdirir. Girişdə, demək olar ki, tamaşanın əsas obrazlı-emosional məzmunu əksini tapmışdır.

Tamaşa üçün S.Kəriminin bəstələdiyi digər musiqi nümunələri lirik-elegiya və lirik xəyalpərvər xarakterlidir. Bu musiqi nömrələri Almazın gərgin emosional-psixoloji anlarını, onun tək qaldığı zaman dərin fikirlərə daldığını, yaşadığı mürəkkəb daxili vəziyyətini dolğun əks etdirir.Tamaşanın digər lirik musiqi səhifələrindən biri də incə, zərif obrazın xəyallar aləmini əks etdirən musiqi epizodudur. Bu nömrənin məğzini xalqın xoşbəxt gələcəyi, rifah halının yüksəlişi haqqında Almazın işıqlı arzuları təşkil edir.

Bütövlükdə, “Almaz” tamaşasına S.Kəriminin bəstələdiyi musiqi Azərbaycan bəstəkarlıq məktəbinin klassiklərinin teatr tamaşaları üçün yazdıqları musiqi ənənələrini davam etdirərək milli koloriti və özünəməxsus gözəl melodik dili ilə diqqəti cəlb edir və tamaşanın əsas ideyasının, məzmununun adekvat qavranılmasına əhəmiyyətli təsir göstərir.

Dissertasiyanın **Nəticə** bölməsində S.Kəriminin yaradıcılıq fəaliyyətinin əsas istiqamətləri dəqiq müəyyənləşdirilmiş və onun Azərbaycan musiqi mədəniyyətində rolu əsaslandırılmışdır.

Sənətkarın bəstəkarlıq fəaliyyətinin əsas xəttini təşkil edən mahnı yaradıcılığında və teatr tamaşalarına yazdığı musiqisində onun fərdi üslubunun xüsusiyyətləri müəyyənləşdirilmişdir.

Aparılan təhlillərdən aydın olur ki, S.Kəriminin əsərləri aydın və anlaşıqlı musiqi dili ilə seçilir. Bəstəkarın xalq musiqisini və muğamları dərindən və mükəmməl bilməsi ona milli musiqi dilinin xüsusiyyətlərindən bacarıqla istifadə etməyə imkan verir.

S.Kəriminin əsərlərinin mövzu və obrazlar dairəsi onun musiqisinin üslub xüsusiyyətlərini şərtləndirir. O, daha çox lirikaya üstünlük verir. Lirik obrazlar sferası bəstəkarın əsərlərində, xüsusi olaraq mahnılarında musiqili ifadənin dərin psixologizmini, humanizmini təyin edir. Bunun da kökləri Azərbaycan xalq musiqisinin, xalq mahnılarının lirik obrazlılığı ilə sıx bağlıdır. Məhz

lirik obrazlılığın prioriteti bəstəkarın fərdi seçilən üslubunu müəyyənləşdirir.

Dissertasiyada bizim tərəfimizdən S.Kəriminin əsərlərinin musiqi-nəzəri təhlili üçün konkret aspektlər seçilmişdir:

1. Burada ilk öncə, melodik başlanğıcın xüsusiyyətləri diqqəti cəlb edir. S.Kəriminin əsərlərində melodik başlanğıc özünü parlaq göstərir. Bu, milli lad quruluşunun özünəməxsusluğu ilə sıx bağlıdır. Belə ki, melodiyalarda hər bir məqamın əsas tematik yükünü ifadə edən formul-kadansların intonasiya məzmunu öz əksini tapır. Onun əsərlərinin melodik məzmununda Azərbaycan musiqisinin xarakter intonasiya məzmunu ilə əlaqə özünü parlaq göstərir.

2. İnkişaf prinsipləri əsərlərin nəzəri təhlilinin əsas aspektlərindən biridir. Bu prinsiplər əsasında əsərlərin müstəqil formatəşkili əmələ gəlir.

3. S.Kəriminin əsərlərinin musiqi materialı ifadə vasitələrinin məhdudluğu, minimalizmi ilə fərqlənir. Əsərlərində tematik material çox vaxt qısa, lakin çox ifadəli və parlaq intonasiya-motivlərdən təşkil olunur. Yığcam,minimal ifadə vasitələrinin inkişaf metodları da müvafiqdir. Bunlar: variantlılıq, təkrarlıq,materialın, melodik başlanğıcın düzxətli inkişafı, ostinatlıq,eyni vəziyyətin uzun müddət saxlanılması, forma təşkilinin axıcılığı və s. Seçilən müəyyən məhdud ifadə vasitələri çərçivəsində formanın açılışı prosesi gedir. İfadə vasitələrinin yığcamlığı fakturanın sadəliyinə də sirayət edir. Belə ki, əsas tematik materialın açılışı çox vaxt ostinat fon üzərində baş verir.

Bəstəkarın əsərlərinin tematik materialının ifadəli elementləri inkişaf prosesində dəyişməz qalır və hər zaman tanınır.Tematizmin intonasiya əsası sabitliyi və vahidliyi ilə seçilir.

Bütün bu xüsusiyyətlər S.Kəriminin bir aranjimançı kimi xalq və bəstəkar mahnılarının işləmələrində də təzahür edir. Bu sahədə onun həm fərdi bəstəkarlıq yaradıcılığının özünəməxsusluğu, həm də kütləvi janrın klassik və ənənəvi modellərinin qorunub saxlanılması cəhdi çıxış edir. Burada bəstəkarın yeniliyi isə mahnı (istər xalq, istərsə də bəstəkar) işləmələrində estrada janrı ilə əlaqənin dərinləşməsində, intonasiyalaşmanın müasir səslənməsinin əldə olunmasında özünü göstərir.

Dissertasiyada S.Kəriminin yaradıcılığının digər istiqaməti – folklorşünas-orqanoloq kimi fəaliyyəti işıqlandırılır. Onun bu sahədə apardığı araşdırma-təkmilləşdirmə işlərinin bilavasitə elmi-praktiki proseslə bağlı olduğu aşkarlanır. İşdə S.Kəriminin milli musiqi alətlərinin təkmilləşdirilməsində və yenidən bərpasında yaxından iştirak edən, həmçinin, bu prosesə bilavasitə rəhbərlik edən mütəxəssis kimi fəaliyyəti ayrıca dəyərləndirilir. Bu sahədə onun şəxsi təcrübəsi və elmi-nəzəri biliyi özünün dolğun əksini tapır.

S.Kəriminin elmi-pedaqoji fəaliyyətinin səmərəli və əhəmiyyətli nəticələrindən biri kimi onun iştirakı ilə hazırlanan "Saz məktəbi" dərsliyinin alətin ilk dəfə olaraq notla tədrisinin həyata keçirilməsində mühüm rol oynaması göstərilir.Belə ki, dərslikdə tətbiq olunan müxtəlif ifa vərdişlərinin təlimi və tədrisi müasir dövrdə saz ifaçılığının inkişafına xidmət edir. Belə bir fundamental dərsliyin ərsəyə gəlməsi Azərbaycan milli musiqi təhsili sistemində əlamətdar hadisə kimi dəyərləndirilir.

**Dissertasiyanın əsas məzmunu iddiaçının aşağıdakı elmi əsərlərində öz əksini tapmışdır:**


1. Quliyev, A.N. Məmmədova, A.V. Bəstəkar Siyavuş Kəriminin yaradıcılığında xalq mahnı işləmələrinə dair // Qloballaşan dünyada musiqi ənənələri. I Beynəlxalq elmi-praktik konfrans. – Bakı: – 26-27 oktyabr, – 2017, – s. 259-263
2. Məmmədova, A.V. Siyavuş Kəriminin bəstəkarlıq fəaliyyətinə bir nəzər // – Bakı: Konservatoriya, – 2018. № 1 (39), – s. 40-47
3. Məmmədova, A.V. Musiqi alətlərinin elmi-praktik əsaslarla təkmilləşdirilməsi professor S.Kəriminin elmi fəaliyyətinin bir sahəsi kimi // – Bakı: Mədəniyyət dünyası,– 2018. XXXV, – s. 97-103
4. Məmmədova, A.V. "Azərbaycan xalq mahnıları" məcmuəsi və "Saz məktəbi" dərsliyi professor Siyavuş Kəriminin elmi-pedaqoji fəaliyyətinin bir sahəsi kimi // – Bakı: Musiqi dünyası, – 2018. № 4 (77), – s. 27-29
5. Məmmədova, A.V. C.Cabbarlının "Almaz" əsərinin səhnə tərtibatında Siyavuş Kəriminin musiqisinin rolu // – Bakı: Elmi əsərlər, – 2018. № 26, – s. 70-76

6. Məmmədova, A.V. Siyavuş Kəriminin yaradıcılığında xalq mahnılarının təfsiri məsələsinə dair // Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri. XVII Beynəlxalq elmi-praktiki konfransın materialları, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunur. – Bakı: ADMİU-nun mətbəəsi, 2018. – s. 174-178
7. Məmmədova, A.V. Siyavuş Kərimi bəstəkar mahnılarının aranjemançısı kimi // Doktorantların və gənc tədqiqatçıların XXII Respublika elmi konfransının materialları: 2 clddə, II c., – Bakı: ADPU nəşriyyatı, – 22-23 noyabr, – 2018, – s. 499-501
8. Məmmədova, A.V. Siyavuş Kəriminin "Hamlet" faciəsinə musiqisində əsas qəhrəmanların səciyyəsi // – Bakı: Konservatoriya, – 2019. № 1 (43), – s. 42-48
9. Məmmədova, A.V. Siyavuş Kerimi`nin "Sensizlik ağrısı" şarkısının ton ve metin özellikleri // – Ankara: Rast müzikoloji dergisi, –2019, cilt VII, sayı 1, – s. 2009-2018
10. Məmmədova, A.V. "Şah Gacar" dramında muzigin dramaturji önemi // V Uluslararası Müzik ve dans Kongresi. Müzik Eğitimi Yayınları, – Ürgüp / Kapadokya: – 22-26 iyul, – 2019, – s. 20-27
11. Məmmədova, A.V. Siyavuş Kəriminin mahnılarında söz ilə musiqinin qarşılıqlı əlaqəsi haqqında // – Naxçıvan: Axtarışlar, – 2022. № 4 (44), – s. 204-212

Dissertasiyanın müdafiəsi 20 sentyabr 2023-cü il tarixində saat $12^{00}$ Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının nəzdində fəaliyyət göstərən FD 2.36 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Ş.Bədəlbəyli küç. 98.

Dissertasiya ilə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 25 iyun 2023-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 14.06.2023

Kağızın formatı: 60x84 1/16

Həcm: 43 940 işarə

Tiraj: 100